


Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

May 2020

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
**Made in Azerbaijan**

“BU MÜDDƏT ƏRZİNDƏ AZƏRBAYCAN DÖVLƏTİ ÇOX BÖYÜK MƏSULİYYƏT GÖSTƏRİB, İLK NÖVBƏDƏ, ÖLKƏ DAXİLİNDƏ. ÇÜNKİ İKİ SEÇİM VAR İDİ - YA İQTİSADİYYATI XİLAS ETMƏK, YA DA İNSANLARIN SAĞLAMLIĞINI. ŞƏXSƏN MƏNİM ÜÇÜN BİRMƏNALI QAYDADA TƏRƏDDÜDSÜZ İNSANLARIN SAĞLAMLIĞI HƏMİŞƏ BİRİNCİ YERDƏ OLUBDUR, O CÜMLƏDƏN PANDEMİYA DÖVRÜNDƏ”



Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik. Mən bildirmişdim ki, keçən ay əldə edilmiş nəticələrdə kiçik də olsa, artım var - 0,2 faiz. Ancaq təxmin edirdim ki, beş ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumi daxili məhsul beş ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçikhəcmlidir.

Bununla paralel olaraq bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Amma qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatı 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu, təqribən 430 dollardan çoxdur. İnflyasiya 3 faizdən aşağıdır, yəni, proqnozlaşdırılmış səviyyədədir. Ona görə bütövlükdə baxanda bizim iqtisadi fəaliyyətimiz də bu müddət ərzində çox uğurlu olub. Ancaq iqtisadiyyat tənəzzülə uğrasa da, bərpa ediləcəkdir, insanların həyatını isə bərpa etmək mümkün deyil. İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 10

2020-ci ilin yanvar-aprel aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 231,7 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-aprel aylarında 209,2 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 16

2020-ci ilin may ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 15,5 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 19

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-aprel ayları** ərzində qeyri-neft sektoru üzrə **549 milyon** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **aprel ayında** qeyri-neft sektoru üzrə ixrac **120 milyon** ABŞ dolları təşkil etmişdir

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2020-ci ilin yanvar-aprel ayları ərzində ölkəmizin ixracı **6,3 milyard** ABŞ dolları təşkil etmişdir. Bu müddətdə qeyri-neft sektoru üzrə **549 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-aprel ayları ərzində koronavirus (COVID-19) pandemiyasının təsiri nəticəsində qeyri-neft sektoru üzrə ixrac **33,5 milyon** ABŞ dolları və ya **5,8 faiz** azalmışdır.

Bu ilin yanvar-aprel ayları ərzində Rusiyaya **186,2 milyon**, Türkiyəyə **122,2 milyon**, Gürcüstana **58,8 milyon**, İsveçrəyə **48,5 milyon** və Çinə **18,1 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin ilk 4 ayı ərzində Rusiyaya qeyri-neft ixracı **13 faiz**, İsveçrəyə **9 faiz** və Çinə **45 faiz** artmışdır.

2020-ci ilin yanvar-aprel ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (73,3 milyon ABŞ dolları) birinci, pambıq mahlıcı (44,3 milyon ABŞ dolları) ikinci və qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 43,7 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Ümumiyyətlə, 2020-ci ilin ilk 4 ayı ərzində ərzində meyvə-tərəvəz ixracı **153,9 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **60,5 milyon**, pambıq lifi ixracı **45 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **25,8 milyon**, kimya sənayesi məhsullarının ixracı **26,5 milyon**, elektrik enerjisinin ixracı **34,3 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **15,1 milyon**, pambıq ipliyi ixracı **8,7 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **4,8 milyon**, şəkər ixracı **4,5 milyon** ABŞ dolları təşkil etmişdir.

2020-ci ilin aprel ayında isə qeyri-neft sektoru üzrə ixrac **120 milyon** ABŞ dolları təşkil etmişdir. Bu ilin aprel ayında qeyri neft-qaz məhsulları ən çox Rusiyaya (51,8 milyon ABŞ dolları), Türkiyəyə (17,8 milyon ABŞ dolları), Gürcüstana (15,9 milyon ABŞ dolları), İsveçrəyə (7,7 milyon ABŞ dolları) və Çinə (6 milyon ABŞ dolları) ixrac edilmişdir.

2020-ci ilin aprel ayında qeyri-neft sektoru üzrə ixracda tomat (pomidor - 29,4 milyon ABŞ dolları) birinci, elektrik enerjisi (16,4 milyon ABŞ dolları) ikinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 7,4 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

2020-ci ilin yanvar-aprel ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2020-Cİ İLİN yanvar-aprel aylarında QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI MAY



## 2020-Cİ İLİN **aprel ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
## **(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**






# 2020-Cİ İLİN **yanvar-aprel aylarında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI MAY

| | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 73,3 | 49,6 |
| Pambıq mahlıcı | 44,3 | 57,9 |
| Qızıl | 43,7 | 43,1 |
| Fındıq ləpəsi | 42,5 | 53,7 |
| Elektrik enerjisi | 34,3 | 45,1 |
| İlkin formalı polipropilen | 26,5 | 28,6 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 16,3 | 28,9 |
| Xurma | 14,1 | 18,1 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 13,5 | 0 |
| Digər | 240,4 | 258,0 |

# 2020-Cİ İLİN **aprel ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI MAY












| Məhsul | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 29,4 | 24,2 |
| Elektrik enerjisi | 16,4 | 6,7 |
| Qızıl | 7,4 | 10,5 |
| Fındıq ləpəsi | 6,2 | 15,3 |
| İlkin formalı polipropilen | 5,3 | 5,1 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 4,7 | 0 |
| Digər yağlar və məhsullar | 4,0 | 5,6 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 3,6 | 6,5 |
| Metanol (metil spirti) | 3,0 | 5,2 |
| Digər | 40,0 | 96,5 |

# Yanvar - aprel aylarında ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI MAY

## 2018

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerji | 17,7 |
| Mart | Elektrik enerji | 13,6 |
| Aprel | Tomat (Pomidor) | 18,5 |

## 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerji | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Tomat (Pomidor) | 24,2 |

## 2020

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 16,3 |
| Fevral | Pambıq mahlıcı | 19,5 |
| Mart | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (Pomidor) | 29,4 |

2

# 2020-Cİ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2020-ci ilin yanvar-aprel ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2020-ci ilin yanvar-aprel ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Land Lojistic" MMC, "Sun Food" MMC, “STDC” MMC, "Aqrovest" MMC, "Natural Fruit" MMC," "Baku Steel Company", "P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC, “Azərtütün Aqrar Sənaye Kompleksi” MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti və “ASK şüşə” MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2020-Cİ İLİN **yanvar-aprel aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

## 2020-Cİ İLİN **yanvar-aprel aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI MAY

| Subyekt | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| ARDNŞ-nin "MARKETİNQ Və İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ" | 46,8 milyon | 60,3 milyon |
| "AZƏRENERJİ" ASC | 34,1 milyon | 45,1 milyon |
| "AZƏRALÜMİNİUM" MMC | 20,5 milyon | 26,8 milyon |
| "AZERGOLD" QSC | 19,0 milyon | 17,9 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 10,8milyon | 6,9 milyon |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 3,9 milyon | 5,9 milyon |
| "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MMC | 822 min | 0 |
| "AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 426 min | 259 min |
| NAXÇIVAN MR DÖVLƏT ENERGETİKA XİDMƏTİ | 240 min | 10 min |
| "ASK ŞÜŞƏ" MMC | 166 min | 3 min |

2020-ci il

2019-cu il



# 2020-Cİ İLİN **yanvar-aprel aylarında "Azərkosmos" ASC 16,6 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2020-ci ilin yanvar-aprel aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **26 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **90 faizini** təşkil etmişdir. 2020-ci ilin aprel ayında isə "Azərkosmos" ASC dünyanın **19 ölkəsinə 6,2 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
|---|---|
| ABŞ | 4,5 mln $ |
| Malayziya | 3,9 mln $ |
| Birləşmiş Krallıq | 3,8 mln $ |
| Fransa | 3 mln $ |
| BƏƏ | 391 min $ |



# 2020-ci ilin yanvar-aprel aylarında Azərbaycana gələn xaricilər **bank kartları vasitəsi ilə** 231,7 **milyon** manatlıq əməliyyat aparmışlar

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın **151 ölkəsindən 539,0 min** və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 36,5 faiz az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Koronavirus pandemiyasının yayılması ilə əlaqədar cari ilin mart ayında olduğu kimi, aprel ayında da ölkəmizə gələnlərin sayında kəskin azalma müşahidə olunmuş, onların sayı əvvəlki ayla müqayisədə 4,7 dəfə, ötən ilin aprel ayı ilə müqayisədə isə 12,1 dəfə azalmışdır.

Cari ilin yanvar-aprel aylarında gələnlərin 30,4 faizi Rusiya Federasiyası, 27,9 faizi Gürcüstan, 12,3 faizi Türkiyə, 6,1 faizi İran, 2,3 faizi Hindistan, 2,2 faizi Səudiyyə Ərəbistanı, 2,1 faizi Ukrayna,1,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,4 faizi  Pakistan, hər birindən 1,3 faiz olmaqla Küveyt və Qazaxıstan, 1,2 faizi Türkmənistan, hər birindən 0,9 faiz olmaqla İraq və Böyük Britaniya, 0,8 faizi Özbəkistan, 0,7 faizi İsrail, 6,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

2020-ci ilin aprel ayında ölkəmizdə xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların həcmi **19,7 milyon** manat təşkil etmişdir. 2020-ci ilin yanvar-aprel ayında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə **231,7 milyon** manatlıq əməliyyat aparmışlar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Yanvar | 99,8 | 88,3 | 85,2 |
| Fevral | 91,1 | 85,3 | 72,9 |
| Mart | 105,8 | 98,0 | 53,9 |
| Aprel | 109,7 | 103,2 | 19,7 |
| CƏMİ | 406,4 | 374,8 | 231,7 |

3

# AZEXPORT.AZ PORTALINA 2020-Cİ İLİN YANVAR-APREL AYLARINDA 209,2 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **1 milyard 794 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin yanvar-aprel aylarında Azexport.az portalına **209,2 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2020-ci ilin aprel ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **61,5 milyon** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq ayı ilə müqayisədə **20,8 faiz** artmışdır.

Bu ilin aprel ayında Azexport.az portalına ən çox ixrac sifarişi pomidor, toyuq yumurtası, badımcan, kartof, qoyun yunu, soğan, pambıq yağı, kələm, bal, göbələk, tütün, şərab, tikinti materialı, meyvə şirəsi, alma, mühərrik yağı, sarımsaq, konservləşdirilmiş tərəvəz, qənnadı məhsulu, metal konstruksiya, yer kökü, çay, buğda unu, uşaq bezi və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 30 aprel tarixinə kimi (40 ay ərzində) Azexport.az portalına dünyanın **141 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 794 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI MAY




Yanvar - **42,1**

Fevral - **60,8**

Mart - **44,8**

Aprel - **61,5**

| 2017-ci il | 2018-ci il | 2019-cu il | 2020-ci il |
|---|---|---|---|
| **CƏMİ - 475** | **CƏMİ - 514,1** | **CƏMİ - 595,7** | **CƏMİ - 209,2** |



Son **40 ay** ərzindəki sifarişlərin cəmi - **1 794,1**

# 2020-Cİ İLİN **aprel ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2020 İXRAC İCMALI MAY

Pomidor



Yumurta



Badımcan



Kartof



Qoyun yunu



Soğan



Pambıq yağı



Kələm



Bal



Göbələk



Tütün



Şərab



Tikinti materialı




Meyvə şirəsi



Alma



4

# 2020-Cİ İLİN FEVRAL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 15,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2020-ci ilin may ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən onlayn rejimdə fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatlar verilmişdir. Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətlərindən "AzerGold" QSC, Teymur Əhmədov adına "AZNAR" QSC, "Baku Steel Company" MMC, "Agro Export Azerbaijan" MMC, "Atena" MMC, "Gilan Tekstil Park" MMC kimi şirkətlərlə yanaşı, fiziki şəxslər də istifadə etmişdirlər. Nəticədə cari ilin may ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **15,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir.

Cari ilin may ayı ərzində ixracatçılara əsasən polad armatur yayması, polad boru, qiymətli külçələr, ayaqqabı altlıqları, tikinti materialları, meyvə şirələri, biyan kökü, pendir,pambıq tullantısı, tibbi zəli, qənnadı məmulatları və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, Ukrayna, Türkiyə, Almaniya, Özbəkistan, Polşa, İsveçrə, ABŞ, İraq daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

# 2020-Cİ İLİN **may ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**






# CARİ İLİN **MAY AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)



İSVEÇRƏ
**79,0%**

RUSİYA
**11,0%**

GÜRCÜSTAN
**6,0%**




TÜRKİYƏ
**1,0%**

DİGƏR
**3,0%**

**Dünya Ticarət Təşkilatının proqnozlarına əsasən** xarici ticarət dövriyyəsi **13-32%** arasında enəcək. 2021-ci il üçün koronavirus pandemiyasının azalacağı təqdirdə **21-24%** arasında qlobal əmtəə ticarətində yenidən yüksəlmə müşahidə ediləcək.



**13-32%**
enəcək

**2020**



**21-24%**
yüksələcək

**2021**

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


